# Tələblərimiz beynəlxalq dəstək qazanır

**Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi–Laçın yolunda keçirilən etiraz aksiyası on altı gündür davam edir. Təhlükəsizlik qaydalarına yüksək səviyyədə əməl olunan aksiyada indiyədək heç bir insident qeydə alınmayıb. Havanın şaxtalı olmasına baxmayaraq, ekoloji fəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırır, şüarlar səsləndirirlər.**



Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir. Aksiya iştirakçıları yüksək əzm, mətanət, qətiyyət nümayiş etdirirlər. Onların tələbləri ilk gündən dəyişməz qalır. Azərbaycanlı mütəxəssislərin montorinq aparmaları üçün lazımi şəraitin yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması,



Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınması.

Ekofəalların tələblərinə beynəlxalq səviyyədə də reaksiya göstərilir. Məsələn, Yaponiyanın Keyo Universitetinin professoru xanım Yoko Hirosenin sözlərinə görə, Xankəndidə yaşayan ermənilərin Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdəki faydalı qazıntı yataqlarını talan etməsi yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün təhlükədir. Azərbaycanlıların öz torpaqlarında yerləşən təbii sərvətlərin talan edilməsinə qarşı etirazlarının haqlı olduğunu vurğulayan professor qeyd edib ki, bu, təkcə Azərbaycan üçün deyil, dünya üçün çox vacibdir.

Y.Hirose bir sıra kütləvi informasiya vasitələrinin azərbaycanlıların Laçın dəhlizini bağlaması ilə bağlı yalan məlumatlar yayması məsələsinə də toxunub. Bildirib ki, bu yalan məlumatlar əsasən real vəziyyətdən xəbəri olmayan sadə oxuculara hesablanıb. Hazırda Xankəndini Ermənistanla birləşdirən həm köhnə, həm də Azərbaycanın çəkdiyi yeni yolun açıq olmasına diqqət çəkən professor təəssüflə bildirib ki, bəzi ermənipərəst siyasətçilər və media bu yalanı dəstəkləyir.

Qeyd edək ki, ermənilər Laçın yolunun "bağlanması" ilə bağlı "qara piar" aparırlar. Halbuki, Laçın yolu humanitar məqsədlər üçün açıqdır. Şuşadan keçən Xankəndi–Laçın yolunda Rusiya sülhməramlılarına məxsus təminat və təchizat avtomobillərinin hərəkət etməsinə şərait yaradılır. Nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunur. Bu, bir daha onu sübut edir ki, aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün yol açıqdır. Təkcə dekabrın 25-də gün ərzində hər iki istiqamətdə Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinə (BQXK) məxsus ümumilikdə on bir avtomobilin maneəsiz hərəkət etdiyi bildirilir.

Gürcü politoloqu Vaxtanq Maisaya da düşünür ki, Azərbaycanın Qarabağ bölgəsindəki təbii sərvətlərin istismarı, bu bölgədə qanunsuz aparılan işlər təkcə Azərbaycan qanunvericiliyinə deyil, beynəlxalq hüququn normalarına da ziddir. Həmin ərazilərdəki yataqlarda aparılan qanunsuz fəaliyyət dərhal dayandırılmalı, azərbaycanlı ekofəalların tələbləri yerinə yetirilməlidir. Onun sözlərinə görə, azərbaycanlı ekofəalların Şuşa–Laçın yolundakı aksiyası tam qanunauyğundur. Azərbaycanlı ekoloqların qaldırdıqları məsələlər diqqətdən kənarda qala bilməz və region dövlətlərini də ciddi narahat etməlidir.

Misirin tanınmış blogeri Əmr Al-Gizi öz instaqram səhifəsində Avrasiya Regional Mərkəzinin ekoaksiyasına dəstəyi, eləcə də Azərbaycan torpaqlarında təbii resursların qeyri-qanuni şəkildə çıxarılmasına son qoyulmasını tələb edən post paylaşıb. Qeyd edək ki, Ə.Gizi bu yaxınlarda İƏTGF ARM–nin həyata keçirdiyi "Show me Azerbaijan–Beynəlxalq Blogerlərin Şuşa Düşərgəsi" layihəsi çərçivəsində Qarabağa səfər edərək öz yutub kanalında ayrıca videoreportaj yerləşdirmişdi. Reportajda Qarabağda baş verən dağıntılar öz əksini tapmışdı. Tanınmış bloger Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı göstərdiyi qəhrəmanlıqdan, eləcə də Qarabağın mədəniyyətindən bəhs etmişdi.

Pakistanlı tələbələr İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏTGF) Avrasiya Regional Mərkəzinin (ARM) ekoaksiya təşəbbüsünə qoşulublar. Azərbaycanda təhsil alan Pakistanlı Tələbələr Assosiasiyası (APTA) İdarə Heyəti azərbaycanlı ictimai fəalların artıq iki həftədir Şuşa–Xankəndi yolunda keçirdikləri ekoloji aksiyaya dəstək bəyanatı ilə çıxış edib. Bəyanatda Qarabağda ermənilərin qeyri-qanuni fəaliyyəti nəticəsində ətraf mühitə vurulan ziyandan narahatlıq və bununla bağlı, azərbaycanlı ekoloqların tələblərinin yerinə yetirilməsinin vacibliyi öz əksini tapıb. Sənəddə o cümlədən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin bu istiqamətdəki apardığı fəaliyyət, Qarabağdakı bərpa işləri yüksək qiymətləndirilib. Eləcə də, Azərbaycanda təhsil alan pakistanlı tələbələrin könüllü kimi Qarabağda ətraf mühitin qorunmasına yönəlik monitorinq fəaliyyətində iştirak etməyə hazır olduqları qeyd edilib.

Bundan başqa, ABŞ-ın Nyu-York şəhərinin Azərbaycan İcmasının üzvləri BMT-nin mənzil-qərargahı qarşısında Xankəndi–Laçın yolunda artıq iki həftədir Azərbaycan ekoloqları və digər qeyri-hökumət təşkilatları tərəfindən davam edən nümayişlərə dəstək olaraq aksiya keçiriblər. İcma üzvləri BMT rəhbərliyindən Ermənistanın Azərbaycanın tarixi torpaqlarında törətdiyi bəşəri cinayətə beynəlxalq hüquq çərçivəsində cavab verilməsini tələb ediblər.

Aksiya zamanı "Ermənilərin ekoloji terroruna son!", "Erməni separatçılarının qeyri-qanuni fəaliyyətinə son qoyulsun!" və sair şüarlar səsləndirilib. Onlar, eyni zamanda, beynəlxalq təşkilatdan bölgəyə ekspertlər göndərilməsini, yataqlarda monitorinq keçirilməsi tələbləri ilə şüarlar səsləndiriblər. Təşkilatçılardan biri, Azərbaycan–Amerika Qadınlar Assosiasiyasının rəhbəri Münəvvər Vahabova BMT-yə müraciətində bildirib ki, Ermənistanın Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycanın tarixi torpaqlarında faydalı qazıntı yataqlarını qanunsuz olaraq heç bir ekoloji normalara riayət etmədən istismar etməsi cinayətdir və bu, təkcə Azərbaycanın deyil, dünyanın ekosisteminə böyük zərbədir.

*Səbuhi MƏMMƏDOV,*
*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2022.- 27 dekabr.- S.6.